# Dədə Şəmşir - 130

## Dədə Şəmşir sazının-sözünün Türkiyədə təbliği



**İlqar İMAMVERDİYEV**
**Sənətşünaslıq Elmləri Doktoru, Qaziantep Universiteti, Türk Musiqisi Dövlət Konservatoriyasının Professoru. "Türk Xalq Musiqisinə Xidmət Mükafatçısı".**

**(əvvəli ötən sayımızda)**

**Şəkil N 6. İlgar İmamverdiyev, «Dədə Şəmşir İfacılığı Sənətində Ənənəvi Saz Havaları»**




Ötən illər ərzində bir çox beynəlxalq elmi konfranslarda Dədə Şəmşir sənəti və yaradıcılığı ilə ilgili fərqli mövzularda məruzələr etməklə hətta bir neçə şeirinin yayınlanmasına da vəsilə oldum.

20-23 Sentyabr 2018 Nevşəhərdə keçirilən, «2. Uluslararası İpək yolu Akademik

Çalışmalar Simpoziumu»nda«Azərbaycan Saz – Söz Dünyasının Ünlü Ozanı, Dədə Şəmşir»adlı mövzu ilə çıxış edib Dədə yaradıcılığına işıq tutmağa çalışdım.

4-7 Aprel 2019-cu ildəKıprıs Sosial Bilimlər Üniversiteti, T.C.Kültür və Turizm Bakanlığı, Uluslararası (TÜRKSOY) Təşkilatının "Doğumunun 125. Yılında ?şık Veysel Şatıroğlu" adına düzənlədiyi beynəlxalq simpoziumda"-Türk Dünyasının Sazlı – Sözlü Ortak Mənəvi Dəyəri Aşıq Veysəl" adlı məruzəmlə Dədə Şəmşirlə Aşıq Veysəlin ortak yaradıcılıq yönləri mövzusundaçıxış edib hər iki ozanın yaradıcılığında kəsişən poetik nöqtələri təhlil etməklə, mənəvi olaraq sanki bir ustada xidmət etməsini ifaçılıq baxımından əsaslandırmağa çalışdım. Konfrans məqaləm bu ilin Avqust ayında "Çələbi" adlı dərgidə Gaziantep şəhərində Əhməd ŞahinBəyin yardımıyla yayınlanacaq.

Dədə Şəmşir yaradıcılığının bir məqamına işıq tutduğum mövzulardan biri də «Dədə Şəmşir Cəmil Əkbərin Yaradıcılığında» adlı ilk məqaləm 2014-cü ildə Bakıda "Mədəni Həyat" dərgisindəyayınlandı.

10 Sentyabr 2017-ci ildə Moldovanın Qaqauz vilayətinin Komrat universitetində düzəmlənən "15. Uluslararası Türk Dünyası Sosyal Bilimler Kongresi"ndə «Türk Dünyasının Ustad Ozanı, Dədə Şəmşirin Musiqi-İfaçılıq Sənəti» adlı mövzu ilə simpozyum iştirakçılarına Dədə Şəmşir şəxsiyyəti haqqında, vokal ifaçılıq məziyyəti, saz sənəti və yaradıcılığı barədə ilk dəfə ətraflı məlumat verdim.

9 Oktyabr 2017 ildə Igdır universitetində düzənlənən «II. Uluslararası Iğdır Sempozyumu»nda (II. International Iğdır Symposium IGDIRSEMP-)"Dede Shamshir in Camil Akbar Literatüre" (Cəmil Əkbər Şeirlərində Dədə Şəmşir)ismli mövzudakı məruzə ilə iştirak etdim. Bir il aradan sonra "Cəmil Əkbər Şeirlərində Dədə Şəmşir"adlı məqaləm 1 İyun 2018 tarixində "Yegah Musiki Dərgisi"nin Cilt 1,N1, 34 – 54-cü səhifəsində yayınlandı.

**Şəkil N 7."Yegah" dərgisi**

Gaziantep Üniversitesi Türk Musiqisi Dövlət Konservatoriyası və"Motif Vakfı"nın 17-19 Oktyabr 2019 tarixindəortaqlaşa düzənlədiyi "Xalq Kültüründə Oyun Müzik Dans Uluslararsı Sempozyumu»nda «Azərbaycan Xalq Muziqi Sənətində Bayatılar» mövzusunda çıxışımın bir bölümündə Dədə Şəmşirin ifaçılıq məsələlərinə də toxunub "Çoban Bayatı" adlı klassik aşıq havasını özünəməxsus zəngin çalrlar-







la, heçkimə bənzəməyən orijinal ifa üslubuna, çalğı dəst-xəttinə aydınlıq gətirərək bu barədə ətraflı bilgi verməyə çalışdım.

Dədə Şəmşirin şeiriyyətinin bəzi örnəklərin yayınlanmasına da vəsilə olduğumu "Şərq qəzeti"nin qiymətli oxucularına məlumat verməyi özümə mənəvi bir borç hesab edirəm. Azərbaycan Poeziyasının, Azərbaycan və Anadolu Aşıq Gələnəyinin fədakar təbliğatcısı Azərbaycan sevdalı insan, tədqiqatçı alim-şair Tayyib Atmacanınimkanları hesabına "Hece

**Şəkil N 8. Tayyib Atmaca**



Taşları"adlıaylıkşeir dərgisində Dədə Şəmşir'in 2 şeiri yayınlanmışdır. "Kimi" rədifli şeiri ilk şeir 15 May 2019(5. Yıl, □ 51), səhifə 8-də, "Altındayam" adlı ikinci şeiri isə 15 Oktyabr 2020 tarixində (6. Yıl, □ 68), 5-ci səhifədə bizim referanslığımızla işıq üzü görmüşdür.

Yeri gəlmişkən dərginin qurucusu Tayyib Bəyin Azərbaycanın Xalq Şairi Səməd Vurğunun 22 bənddən olan "Azərbaycan" şeiri, "Hece Taşları"nın 15 Sentyabr 2015 il N 7 sayında yayınlanmaqla dərginin üz cildində xalq şairimizin şəkli də yer almaqla xüsusi buraxılışda öz əksini tapmışdır.

**Şəkil N 9. Hece Taşları aylık dərgisinin 2015-ci ildə yayınlanmış üz cildi**

2018 ilində "Azərbaycan Musiqisində Bahar Movzusu və Novruz Motivlərının İzlərı"adlı kitabımın,yaz mövsümündə açan "Lalə" və "Süsən çiçəyi" ilə əlaqədar "Lalə", "Süsənbəri" adlı qədim saz havaları, Azərbaycan aşıq sənətinin məşhur ustadı, Əməkdar İncəsənət Xadimi Şəmşir Qurban oğlu Qocayevin repertuarında yer aldığını da qeyd etməyi önəmli sandıq.

2019 ilində Türkiyədə "İksad" Yayınevi tərəfindən yayınlatmış olduğum "Azerbaycan Müzik Kültürü Tarihinde Bayatılar-Maniler" isimli kitabımın 13-cü səhifəsində Dədə Şəmşirin "Güllü Qafiyə" adlı klassik aşık havasının ən mükəmməl, ən doğru çalıb-oxuduğunu qeyd edərək sazla birlikdə çəkilmiş şəklinin, həmin səhifədə olmasını münasib bildik.

**Şəkil N 10.İlqar İmamverdiyev"Azerbaycan Müzik Kültürü Tarihinde Bayatılar-Maniler"**




2021-ci ildə "İksad yayınevi" tərəfindən "Ürəyimin Nəğmələri" adlı kitabımın252-ci səhifəsində Dədə Şəmşirin "Qurban Olum", 256-258-ci səhifədə isə "Ürəyimdə" adlı şeirinə musiqi bəstələyib daha sonra not şəklində yayınlatmış oldumu da 525-ci qəzetin oxucuları ilə paylaşmaq istərdim.

**Şəkil N 10.İlqar İmamverdiyev 'Ürəyimin Nəğmələri"**




2021 ilində "İksad yayınevi" tərəfindən yayınlanmış "Azerbaycan ?sik İcraciligi Sanatı" kitabının 132-ci səhifəsində Dədə Şəmşirin bir zamanlar 13 pərdəli sazda çalıb-söylədiyini qeyd etmişik. Və pərdələrin düzümündən əldə edilən səslərin not sistemindəkiyazılmasını da musiqişünaslıq baxımından ihmal etmədik.

**Şəkil N 11.İlqar İmamverdiyev "Azərbaycan aşıq ifaçılığı sənəti"**




Daha bir əlamətdar hal o oldu kiProfessor Babək Qurbanovun elmi rəhbəri olduğu keçmiş müdirimiz, sənətşünaslıq namizədi Hakan Tatyüz Bəyin bilavasitə göstərişi ilə heykəltəraş Əhməd Şimşək tərəfindən Dədə Şəmşirin 125 illiyi münasibətiylə büstü Gaziantep Universiteti Türk Musiqisi Dövlət Konservatoriyasında yer aldı.

**Şəkil N 12. (sağdan sola) Prof. Babək Qurbanov, Dr.Hakan Tatyüz və Prof. İlqar İmamverdiyev**



Dədə Qorqud, Fərabi, Buhurizadə Mustafa (Itri), Aşıq Veysəl, Tabmuri Cəmil bəy, Müzəffər Sarısözən, Nida Tüfəkçi, Yücəl Paşmakçı, Mehmet Özbəy kimi Türkiyənin məşhur sənətkarları ilə birlikdə Dədə Şəmşirin büstünün dəyer alması Türkiyə və Azərbaycan dostluğunun rəmzi, qardaşlığının isə təntənəsi idi.

**Şekil N 13. Dədə Şemşirin Türkiyədə, Gaziantep Üniversitesi Türk Musiqisi Dövlət Konservatuariyasında qoyulmuiş büstü. Prof.Dr. İlgar Cəmil oğlu İmamverdiyev**



Türkiyədə "Dədə Şəmşirin kitabını Türk dilinə tərcümə edilib nəşr oluna bilməsində 53 kitabın yazarı və 700-dən artıq məqalənin müəllifi, qüdrətli elm xadimimiz Azərbaycanımızın iftixarı Babək Osmanoğlu Sarıvəllinin adı və xidməti ilə bağlıdır. "?şık Şemşir, Şiir Demeti" adlı kitap 2014ilində nəşr olunub müxtəlif universitetlərin kitabxanasına göndərildi.

**Şəkil N 14.Babək Qurbanov "İşık Şemşir, Şiir Demeti" Ankara - 2014 /Türkiyə**



Bu haqda Babək müəllimin fikirlərini "Şərq qəzeti"nin imkanları ilə dəyərli oxucularımıza çatdırmağı bir vəfa borçu hesab edirəm.

Osmanoğlu Babək müəllim "Milliyət" qəzetində yayınlanmış müsahibəsində belə demişdi: "Azerbaycan halk edebiyatında oldukça büyük öneme sahip olan Dede Şemşir, çok yönlü bir sanatçı olarak tanınıyor. ?şık Veysel'e benzeyen tarzı ile dikkat çeken Dede Şemşir, Türk edebiyatı açısından da oldukça önemli bir sanatçı ve edebiyatçı olma niteliği taşıyor. Azerbaycan'da ünlü bir aşık olan Dede Şemşir'e ait bu kitap, ilk defa Türkiye'de Türkçe yayınlanıyor. Dede Şemşir, Azerbaycan'da ?şık edebiyatının en önemli isimlerinden birisidir. Dede Şemşir çok yönlü bir şahsiyettir. Bu tür sanatçılar ?şık ozan sanatının çeşitli yönlerini ifade etmişlerdir. Hem şiir yazmış hem de yazdığı şiirleri saz ile icra edebilmiştir". "Milliyət" qəzetində daha sonra belə yazır: "Dede Şemşir'in Türkiye'de yeteri kadar tanınmadığını ifade eden Prof. Dr. Kurbanov, Dede Şemşir'in Türk edebiyatının ortak bir değeri olduğunu kaydetti Prof. Dr. Kurbanov şöyle konuştu":"Birkaç yıldır Türkiye'de yaşıyorum ama duydum ki Dede Şemşir'i veya bizim ünlü insanlarımızı Türkiye'de çok fazla tanımıyorlar. Aslında bunlar bizim ortak değerlerimiz. Bunları değerlendirebilmemiz gerekiyor. Dilimiz olsun, dinimiz olsun, gelenek göreneklerimiz olsun çok benzerlik gösteriyor. Bu değerler arasında bilinmeyen, birbirimizin tanımadığı ozanlarımızı gün yüzüne çıkarmak bizim görevimizdir. ?şık Şemşir Türk dünyası açısından çok önemli bir şahsiyettir. İnanıyorum ki bu kitap sanat ve edebiyat dünyasının son derece ilgisini çekecek."

13 may 2022-ci il tarixində Aşıq Şəmşir və Səməd Vurğunun xatirəsinə həsr edilmiş "Aşıq Sənəti və Yazılı Ədəbiyyat" mövzusundakı Beynəlxalq Elmi Konfrans, Gazax Rayon İcra Hakimiyyəti, AMEA Folklor İnstitutu, Ərzincan Binəli Yıldırım Universiteti, BDU Qazax Filialı və "Aşıq Şəmşir" Mədəniyyət Ocağı"nın işbirliyində gerçəkləşdi.



**Şəkil N 15. "Aşıq Sənəti və Yazılı Ədəbiyyat" Proqram**

Əslində bu Beynəlxalq elmi konfransın bir məramı Dədə Şəmşirin 130 illik yubileyinə hazırlıq ərəfəsində mühüm əhəmiyyət kəsb edən mədəni- tarixi bir hadisə kimi də dəyərləndirə bilərik. Azərbaycan, Qazaxıstan, Türkiyə, qonşu ölkələr daxil olmaqla hətta digər Avropa ölkələrdən elmi mövzularda çıxş edən alimlərin sayının səksəndən yuxarı olması bu tədbirin möhtəşəmşiyindən, təşkilatı işlərin ciddiyətindən xəbər verirdi. Eyni zamanda Dədə Şəmşir kimi böyük saz-söz ustadının bu il beynəlxalq miqyasda tanıdılmasıyolunda keçən il atılmış ilkin fəaliyyətin bir göstərgəsi, Dədə Şəmşir adına düzənlənən tədbirlər silsiləsininstartmərhələsinintəntənəsi idi.